*Layihə*

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# S Ə R Ə N C A M I

**“2014–2018-ci illərdə Azərbaycan Respublikasında daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və kadastr sisteminin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı istiqamətində aparılan işlərin təkmilləşdirilməsi, daşınmaz əmlakın qiymətləndirilməsinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə **qərara alıram:**

1. “2014–2018-ci illərdə Azərbaycan Respublikasında daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və kadastr sisteminin inkişafına dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üzrə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, “___” ___________ 2014-cü il

№______

Reyestr xidmeti/ ferman